5 dekabr / 2020

Ədəbiyyat QƏZETİ

*Kamal Abdulladan söz düşəndə mən istər-istəməz iki şəxsi xatırlamalı oluram, bir-birini tamamlayan iki şəxsi; alim və yazıçı Kamal Abdullanı. Və fikrimcə, alim Kamal Abdulla nə qədər keçmişdədirsə, yazıçı Kamal Abdulla bir o qədər gələcəkdədir. Daha doğrusunu deməyə cəsarət edək; yazıçı Kamal alim Kamalın keçmişini gələcəyə daşımaqla görəvləndirilib. "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", hekayələrinin, demək olar ki, hamısı yazıçı Kamalın gələcəyə daşıdığı alim Kamalın bilgi xəzinəsidir. XX əsrin ikinci yarısı filosofların ədəbiyyata gəlişi ilə əlamətdar idi, bu əsrin son üçüncü yarısı professorların ədəbiyyata gəlişi ilə yadda qaldı. Azərbaycan ədəbiyyatında Niyazi Mehdinin ("Altay və Umay"), Aydın Talıbzadənin ("Əbuhübb") və Kamal Abdullanın bütün romanları XX əsrin bu tendensiyalarının XXI əsrə açılan qapıları oldu. Ona görə də biz Kamal Abdullaya XX əsrin alimi, XXI əsrin yazıçısı deməkdən çəkinməyəcəyik. Əlbəttə, burada öyrəşdiyimiz bədii və öyrəşmədiyimiz intellektual roman haqqında danışmaq yerinə düşərdi. Amma nəzərə alaq ki, bu, sadəcə, yubley təbrikidir.*

*70 yaş bir yazıçının xatırlayan dövrüdür. Təsadüfi deyil ki, Kamal Abdullanın yeni çap olunan "Mənim Füzulim" kitabında toplanmış düşüncələrin əksəriyyəti "Füzuli xatırlayır" başlığı altında verilib. Unutmamaqda fayda var; xatırlanan yazıçının gəncliyidir. Məcnun da, çox güman, Füzulinin gənclik xatirəsi idi, xatirələrinin qəhrəmanı idi. Kamal Abdulla da indi, eyni zamanda gəncliyə qayıdış dövrünü yaşayır. Bu isə növbəti böyük əsərlərin müjdəsidir. Höte özünün ən gözəl sevgi şeirlərini yetmiş yaşından sonra yazmışdı.*

*Təbrik edirəm, Kamal müəllim!*

*Aqşin YENİSEY (şair)*